# Azərbaycan 42-ci Şalyapin Beynəlxalq Opera Festivalında təmsil olunur

**M.Calil adına Tatarıstan Dövlət Akademik Opera və Balet Teatrında keçirilən 42-ci Beynəlxalq Şalyapin Opera Festivalında Rusiya, Azərbaycan, İtaliya və Belarusdan dəvət olunmuş tanınmış dirijor və solistlər yer alıb.**



Builki festival Kazan Dövlət Opera Teatrının 150-ci illiyinə həsr edilib.

Festivalın açılış günü ilk klassik rus professional operası kimi tarixə düşən Mixail Qlinkanın "İvan Susanin" ("Çar üçün həyat") operasının premyerası olub. Tanınmış rus rejissoru Yuri Aleksandrovun quruluş verdiyi tamaşaya rəhbərlik etmək üçün dünyaşöhrətli dirijor, Rusiyanın Bolşoy və Mariinski teatrlarının direktoru Valeri Gergiev dəvət edilib.

Festivalın uğurlu və əlamətdar tamaşalarından biri isə C.Puççinin "Toska" operası olub. Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının baş dirijoru və musiqi rəhbəri, Azərbaycanın Əməkdar artisti Əyyub Quliyevin rəhbərliyi və üç möhtəşəm teatr - Bolşoy, Mariinski və Belarusun Bolşoy teatrlarının solistlərinin yer aldığı bu mühüm hadisə yerli mətbuatda xüsusi işıqlandırılır.

Dirijor Əyyub Quliyevin Kazan Dövlət Opera Teatrı ilə əməkdaşlığı 2021-ci ilin mayında dahi Azərbaycan bəstəkarı Fikrət Əmirovun "1001 gecə" baletinin premyerası ilə başlayıb. Builki festival çərçivəsində C.Rossininin "Sevilya bərbəri", C.Verdinin "Aida", R.Leonkavallonun "Məzhəkəçilər", M.Musorqskinin "Boris Qodunov", P.Çaykovskinin "Yevgeni Onegin" və Mariinski Teatrın Gənclər Vokal Akademiyasının fevralın 29-da və martın 1-də gerçəkləşəcək qala konsertləri nəzərdə tutulub.



Azərbaycan.- 2024.- 28 fevral, № 45.- S.11.